## İSTİFADƏÇİ TƏLİMATI
## (MÜDDƏTDƏN ARTIQ HƏQİQİ HƏRBİ XİDMƏTƏ QƏBUL ÜZRƏ)

**Hörmətli istifadəçi,**

Milli Müdafiə Universitetinin elektron xidmətlərindən faydalanmaq istəyən hər bir istifadəçinin elektron şəxsi kabineti olmalıdır. Şəxsi kabinet bir dəfə yaradılır və daim istifadə edilə bilər.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursuna (Çavuş hazırlığı) müraciət etmək istəyən namizəd Milli Müdafiə Universitetnin rəsmi saytının (mmu.edu.az) **"Təhsil müəssisələrinə qəbul"** bölməsindən elektron sənəd qəbulu portalına (Çavuş hazırlığı) keçid etməlidir.

**Mərhələ 1 – Elektron sənəd qəbulu portalında qeydiyyat və sənədlərin daxil edilməsi**

- qeydiyyatdan keçmək istəyən vətəndaş şəxsi kabinetini yaratmalıdır. Bunun üçün elektron sənəd qəbulu portalının **"Baş səhifə"**sində olan **"Qeydiyyat"** bölməsinə keçid edərək, açılmış pəncərədə **"İstifadəçi qaydaları"** ilə tanış olduqdan sonra "**Qəbul edirəm"** düyməsini sıxmalıdır;
- növbəti səhifədə şəxsi kabinet yaratmaq üçün müvafiq xanalar doldurularaq **"Kabinet yarat"** düyməsi sıxılmalıdır;
- qeydiyyat zamanı istifadə etdiyiniz e-poçt ünvanına göndərilmiş linkə daxil olaraq şəxsi kabinet aktivləşdirilməlidir. Linkə yalnız bir dəfə daxil olmaq mümkündür. Əks təqdirdə məlumatları şəxsi kabinetdə **"Profilini redaktə et"** bölməsindən daxil etmək olar;
- linkə daxil olduqdan sonra açılan pəncərədə müvafiq xanalar doldurulmalı və sonda **"Kabinet yarat"** düyməsi sıxılmalıdır. Bu mərhələdə namizədin "Şəxsi kabineti" yaradılmış hesab olunur;
- yeni açılan səhifədə **"Sənəd əlavə et"** düyməsi sıxılaraq müvafiq sənədlərin elektron forması kabinetə əlavə edildikdən sonra **"Göndər"** düyməsi sıxılmalıdır.

**Mərhələ 2 – Tibbi müayinə**

Bu mərhələdə namizəd Müdafiə Nazirliyinin müvafiq tibb müəssisəsi tərəfindən keçiriləcək tibbi müayinədə iştirak etməlidir. Tibbi müayinənin yeri və tarixi barədə məlumat Şəxsi kabinetdə olan **"Məktub qutusu"** bölməsinə göndəriləcəkdir.

Namizəd **"Məktub qutusu"** bölməsinə daxil olmuş məlumata əsasən toplanmış sənədlər qovluğu ilə qeyd olunmuş ünvana yaxınlaşmalı, burada ona təqdim olunacaq "Sağlamlıq haqqında arayış"ın (Forma-7) tələblərinə uyğun tibbi müayinələrdən keçməlidir.

Tibbi müayinə bitdikdən sonra Şəxsi kabinetdə olan **"Bütün sənədlərə bax"** bölməsinə keçid edərək **"Sənəd qovluğunu redaktə et"** bölməsindən **"Forma-7 əlavə et"** düyməsi sıxılmalıdır. Açılan səhifədə "Sağlamlıq haqqında arayış" (Forma-7) qeyd olunan bölməyə elektron formada daxil edilməli və **"Forma-7 əlavə edildi"** seçimini edərək "**Yadda saxla"** düyməsi sıxılmalıdır. Sənədin əsli isə hazırladığınız sənədlər qovluğuna yerləşdirilməlidir.

**Qeyd:**

1. Şəxsi kabinetdə olan **"Sənəd əlavə et"** bölməsində qeyd olunmuş sənədləri elektron formada daxil etdikdən sonra həmin sənədlərin qaydalara uyğun olaraq əsli və ya surəti ardıcıllıqla yığılaraq qovluğa yerləşdirilməlidir.
2. Milli Müdafiə Univeristeti tərəfindən sizə ünvanlanan bildirişlərin vaxtında əldə olunması üçün **"Məktub qutusu"** bölməsi mütəmadi olaraq yoxlanılmalıdır.
3. Müdafiə Nazirliyinin müvafiq tibb müəssisəsinə tibbi müayinəyə gedərkən şəxsiyyət vəsiqənizi, psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışları özünüzlə götürməyiniz mütləqdir.